# Böyük Qayıdışın abad yolları



**İşğalçı Ermənistan üzərində Müzəffər Silahlı Qüvvələrimizin qəhrəmanlığı sayəsində əldə edilən tarixi qələbədən dərhal sonra azad edilmiş ərazilərdə erməni faşistlərin hər tərəfə basdırdıqları minaların təmizlənməsinə, ardınca isə həyat əhəmiyyətli infrastrukturun qurulmasına başlanıldı. Quruculuq və bərpa işləri ilk növbədə, işğal illərində yararsız vəziyyətə düşən yolların tikintisi, yol qovşaqlarının qurulması, körpülərin salınması Qarabağa və Şərqi Zəngəzura həyatın qayıtmasından xəbər verdi. Erməni faşizminin törətdiyi vəhşilik haqqında Azərbaycan Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən torpaqlara mütəmadi səfərləri zamanı dəfələrlə bildirib ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmiş, tarixi irsimizi silmək istəmişdir.**

Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası "Artsax dövləti" - cəhənnəmə getdi. "Dövlət" idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

Azad edilmiş torpaqların bərpası yollardan başlandı. İnşasına ötən ilin əvvəlindən başlanmış Bərdə-Ağdam avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və yol infrastrukturu layihələrindən biri olan, başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44.5 kilometrdir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Ümumilikdə nəzərdə tutulan işlərin böyük əksəriyyəti başa çatmaq üzrədir. Yol qovşağındakı körpülərin tikintisi yekunlaşır və yol əsası hazır olan hissələrdə (12-45-ci km) yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur. Bundan başqa, avtomobil yolunun Bərdə şəhərinin daxilindən keçən bir hissəsində (2.2 km) yeni asfalt-beton örtüyünün döşənməsi, piyada səkilərinin inşası, səki və tamet daşlarının düzülməsi işləri davam edir.



Yeni inşa edilən yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə nəzərdə tutulan suötürücü boru, düzbucaqlı su keçidi, həmçinin, zəruri olan yerlərdə yeraltı keçidlərin inşası da artıq başa çatdırılıb. Bərdə-Ağdam avtomobil yolunun 25 və 40-cı kilometrlik hissələrində inşa olunan 91,3 və 18,2 metr uzunluğa malik avtomobil körpülərinin tikintisi də artıq yekunlaşıb. Yolun 14-cü kilometrlik hissəsində 66 metr uzunluqda yol qovşağında yanaşma yollarının və həmçinin, yolun 4, 14 və 16 kilometrlik hissələrində nəzərdə tutulan yerüstü piyada keçidlərinin inşası davam edir. Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolunun ilk 14 km hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

Bundan başqa, uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək Ağdam-Füzuli avtomobil yolunda tikinti işləri sürətlə aparılır və yeni yol 4 hərəkət zolaqlı olacaq. Yol yatağının eni 26,5 metr nəzərdə tutulub və birinci texniki dərəcəli yolboyu 380 metr istinad divarı da inşa olunacaq. Yeni yolun tikintisində xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılmaqla 26,5 metr enində yeni yol yatağı inşa edilir. Qeyd edək ki, yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi, eyni zamanda bəzi hissələrdə isə bitki qatının qazılaraq çıxarılması, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülür. Yol boyunca sel-suların ötürülməsini təmin etmək məqsədilə 60 suötürücü boru, 8 düzbucaqlı su keçidi, həmçinin, zəruri olan yerlərdə 5 yeraltı keçidin və yol üzərində 3 yeni avtomobil körpüsünün tikintisi nəzərdə tutulub. Bundan başqa, yolboyu avtobus dayanacaqlarının və digər infrastrukturun inşası da aparılacaq.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazilərindən keçir. Yeni yol Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə insanların rahat gediş-gəlişini təmin edəcək. Keçmiş məcburi köçkünlərin Qələbə və Zəfər yolları Qarabağın işğaldan azad edilmiş 300-dən çox kənd və şəhərinə yenidən həyat gətirəcək, firavanlıq, tərəqqi və əmin-amanlıq bəxş edəcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 6 avqust.- S. 4.**